# *Əlövsət BƏŞİRLİ - 85*



Hörmətli Əlövsət müəllim!

Sizi anadan olmağınızın 85 illiyi münasibətilə təbrik edirik.

Siz həyatınızın yarım əsrini mətbuata həsr etmisiniz. Orta məktəbi qızıl medalla bitirib Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsinə qəbul olmuş, təhsilinizi fərqlənmə diplomu ilə başa vurub, uzun illər bölgə mətbuatında işləmisiniz. Bölgələrarası qəzetin xüsusi müxbiri, redaktor müavini, redaktoru olmusunuz. Bakıya köçdükdən sonra Azərbaycan radiosu təbliğat redaksiyasının redaktoru, respublika televiziyası Gənclər redaksiyasının böyük redaktoru - şöbə müdiri, Jurnalistlər İttifaqının "Açıq söz" qəzetinin redaktor müavini, Mədəniyyət Nazirliyinin "Mədəni-maarif" jurnalının baş redaktoru, Heydər Əliyev adına Hərbi Akademiyada Redaksiya-nəşriyyat şöbəsinin rəisi - baş redaktoru (2001-2010) vəzifələrində çalışmısınız.

Dövri mətbuatda fəaliyyətiniz zamanı mükafatlara, təltiflərə layiq görülmüş, SSRİ Jurnalistlər İttifaqı mükafatı laureatı olmuş, Respublika Ali Sovetinin Fəxri Fərmanını, Ümumittifaq Sərgisinin gümüş medalını, Azərbaycan Mətbuat Şurasının mükafatını almısınız.

Siz bədii yaradıcılığa ötən əsrin 70-ci illərində başlamısınız. Bir müddət kiçik həcmli satirik hekayələrinizi, həmçinin oçerklərinizi qəzet və jurnallarda dərc etdirdikdən sonra şahidi olduğunuz real həyat hadisələrini bədii təfəkkür süzgəcindən keçirib ədəbiyyata gətirərək "Səssiz cinayət" povestini oxucuların mühakiməsinə vermisiniz. 1989-cu ildə "Karvan" jurnalında, 1992-ci ildə "Yazıçı" nəşriyyatında kitab şəklində çap olunan povestin taleyi uğurlu olub. Onun ardınca "Qanla suvarılan ağac", "Zirvədən zülmətə", "Ömür keçdi", "Biz hara gedirik" povestləri və "Qəsd" romanı nəşr edilib.

"Qəsd"in maraqlı, oxunaqlı bir əsər olduğunu, romanda sərt, amansız həyat gerçəkliyinin müxtəlif insan taleləri ilə qovuşduğunu ədəbi tənqid xüsusilə qeyd etmişdir.

Sizin son illər "Azərbaycan", "Ulduz" jurnallarında, "Ədəbiyyat qəzeti"ndə və "Ədalət" qəzetində dərc olunan povest, hekayə, publisistik məqalə və xatirələriniz ("Adamsız adam", "Gecə yarısı döyülən qapılar", "İblis xisləti", "Günah", "İnsan kimi", "Qürub çağı", "Üfüqdə qaralan dağlar", "Kürün sahilləri, ömrün dolayları") və s. oxucular tərəfindən maraqla qarşılanıb.

Hörmətli Əlövsət müəllim!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, Sizə uzun ömür, cansağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**

Ədəbiyyat qəzeti.- 2023- cü il.- 19 avqust.- S. 26.